# Yeni mərhələnin başlanğıcı

## *Azərbaycan Dövlət Neft və Sənaye Universiteti keyfiyyət və məsuliyyət baxımından yeni bir mərhələyə qədəm qoyur*



**Əvvəllər bir sıra adlarla yanaşı Neft Akademiyası kimi də tanınmış bu ali təhsil ocağının bu il sentyabrın 3-də cənab Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlandırılması keyfiyyət və məsuliyyət baxımından yeni bir mərhələnin başlanğıcından xəbər verir.**

**Ali məktəbimizin adında “neft” sözünün olması təbii zərurət və tarixi köklərlə bağlıdır. Tarixən Universitet həm sovet dövründə, həm də Azərbaycanın müstəqillik illərində başlıca olaraq neft sənayesi üçün mütəxəssis hazırlığı ilə məşhur olmuşdur. Bundan əlavə, neft yalnız bizim üçün milli sərvət deyil, həmçinin ölkəmizi dünyada tanıdan bir marka, bir simvoldur.**

**Möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanda qeyri-neft sektoru ilə bağlı olan sənaye sahələrinin inkişafına ciddi diqqət ayırması isə müasir dövrün tələbidir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı ölkəmizin neftdən asılılığının azaldılması istiqamətində əsas addımlardır. Qeyri-neft sənayesinin inkişafı ilə bağlı bizim kollektivin də üzərinə çox böyük məsuliyyət düşür. Yeni adımıza “sənaye” sözünün əlavə olunması da, bu baxımdan, Azərbaycanın gələcəyi üçün innovativ tutumlu, yeni texnologiyalarla dolu sənaye müəssisələrində işləyəcək kadrların hazırlanması ilə bağlı universitetə qoyulan tələblərlə bağlıdır.**

Yeni dərs ilinin ilk günlərindən etibarən professor-müəllim heyəti və tələbələrlə keçirilmiş görüşlərdə ölkə rəhbərinin bizim üzərimizə qoyduğu məsuliyyət, qarşıdakı hədəflərimiz barədə geniş fikir mübadilələri aparılmış, dövlət rəhbərliyinin siyasətinə dəstək olaraq bundan sonra da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Azərbaycan sənayesinə yüksək şəkildə qulluq edəcəyi ilə bağlı inam ifadə olunmuşdur. Bundan başqa, kollektivin hər bir üzvündən öz işinə məsuliyyət və intizamla yanaşmaları, müəllim-tələbə münasibətlərində demokratik prinsiplərdən çıxış etmələri xüsusi vurğulanmışdır.

Ötən iki ay ərzində universitetin şanlı nüfuzunu bərpa etmək və gələcəyə inamla baxmaq məqsədilə uzunmüddətli strateji təkliflər paketi və fəaliyyət planı hazırlanmışdır. Nəzərdə tutulan tədbirlər vasitəsilə Azərbaycan Dövlət Neft və Sənayesi Universiteti qlobal reytinq siyahılarına daxil ola, öz şanlı nüfuzunu daha da artıra bilər. Bunun üçün tarixi təcrübə və onun üzərində dayanan müvafiq zəmin var: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti Kurçatov, Landau, Mirzəcanzadə kimi alimlərin mühazirə oxuduğu, başda ulu öndər Heydər Əliyev olmaqla görkəmli məzunlar yetirmiş zəngin tarixə malik bir ali təhsil ocağıdır.

Hələ SSRİ dönəmində yaxın və uzaq xarici ölkələrdə çox prestijli universitet kimi tanınmış, sovet ali məktəbləri içində hər zaman ilk onluqda olmuş ADNSU Sovetlər Birliyində xarici tələbələrin hazırlanmasına görə həmişə əsas ali məktəblərdən biri olmuşdur.

Odur ki, əvvəllər mövcud olmuş nöqsanları aradan qaldırmaq üçün önəmli işlər görülmüş, ilk növbədə, professor-müəllim heyətinin gördüyü işin müvafiq şəkildə qiymətləndirilməsi ilə bağlı qərar qəbul edilmişdir. Həmçinin fakültələrə yeni nəfəs gətirmək üçün idarəçilikdə müəyyən dəyişiklər aparılmış, Təhsil Nazirliyi ilə birgə yeni dekanların seçkisi elan edilmişdir.

Oktyabrın 1-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Elmi Şurasında görkəmli alim, akademik Azad Mirzəcanzadənin adına təqaüdün təsis edilməsi ilə bağlı qərar qəbul olunmuşdur. Təqaüd ali təhsil ocağında yaradılmış komissiyanın qərarı ilə hər tədris ilində A.Mirzəcanzadənin işlədiyi elm sferasına uyğun olan fakültələr üzrə ən yüksək təhsil səviyyəsi olan, elmi-təcrübi biliklərə, dünyagörüşünə, davamiyyəti və davranışı ilə fərqlənən üç tələbəyə veriləcək.

Bundan başqa, oktyabrın 6-da universitetin tələbələri üçün “açıq mikrofon” günü keçirilmişdir. Tələbələrə öz suallarını rektora birbaşa ünvanlamaq şansı verilmiş, toxunlan bir çox məsələlərlə bağlı yerindəcə qərarlar qəbul edilmişdir. Tələbələri ən çox maraqlandıran məsələlərdən biri olan imtahanların keçirilməsi metodu ilə bağlı da qərar qəbul olunmuşdur: birinci kurs tələbələri test üsulu ilə, digər kurslar yazılı şəkildə imtahan verəcəklər. Birinci kurs tələbələrinin müəyyən qədər keçid dövründə olmasına görə bu məsələ onlar üçün yumşaldılıb. Digər kursların tələbələri isə qeyri-obyektivliyə görə narahat olmasınlar, artıq neqativ hallardan heç kim əziyyət çəkməyəcək.

Qarşımızdakı daha bir tədbir universitetdə elektron təhsil sisteminin yaradılması ilə bağlıdır. Təhsildə şəffaflığın yaradılması, təlim-tədris prosesinin daha effektiv olması üçün belə bir sistemin yaradılmasına çox böyük ehtiyac var. Bu məqsədlə yerli və xarici ölkələrin bir neçə şirkəti ilə danışıqlar aparılmış, sonda milli brendimizi yaratmasına kömək etmək üçün Azərbaycan şirkətinin üzərində dayanılmışdır. Bu təşəbbüs tez bir zamanda reallaşacaq və qarşıdakı aylarda ADNSU-nun elektron təhsil sistemini istifadəyə verəcəyik. Sistem universitetdə informasiya texnologiyalarının inkişafı ilə bağlı elan edilən yeni siyasətin tərkib hissəsidir. Bu strategiyaya professor-müəllim heyətinin İT bacarıqlarının yüksəldilməsi, elektron kitabxananın inkişafı və s. məsələlər də daxildir.

Ümumiyyətlə, ADNSU-da təhsilin müasir standartlara uyğunlaşdırılması, keyfiyyətin artırılması həm rəhbərlik, həm professor-müəllim heyəti, həm də tələbələrin birgə səyi ilə reallaşdırıla bilər. Bunun üçün həm də xarici ölkələrin təcrübəsi də öyrənilməli, ilk növbədə, qabaqcıl universitetləri ilə yeni əlaqələr qurulmalı, mövcud əlaqələr genişləndirilməli, onlarda olan innovasiyalar və modellər tədqiq olunmalıdır. Bundan əlavə, Avropa ölkələrinin daxil olduğu ERASMUS+ və digər mübadilə proqramlarında fəal iştirak etməliyik. Bu cür proqramlar vasitəsilə, öz müəllimlərimizi və tələbələrimizi xarici ölkələrə qısa və ortamüddətli səfərlərə və təhsilə yollamalı, onların yeni ideyalar və təşəbbüslərlə ölkəmizə qayıtmalarını təmin etməliyik. Bu cür mübadilələrdən yararlanan müəllim və tələbələrimiz də universitetdə demokratik mühitin yaradılmasına çox böyük töhfə verəcəklər. Çünki **yüksək mənəvi mühit, şəffaflıq, yaradıcılıq, yeni yanaşma ali məktəbimizin yeni mərhələdə əsas göstəricilərindən olacaq.**

Belə mübadilə proqramları həmçinin xarici professorların və tələbələrin də universitetimizə gəlməsi deməkdir. Bunun üçün də mövcud maddi-texniki bazamızı yaxşılaşdırmalı, onların yataqxana və digər problemlərini həll etməliyik.

Yuxarıda qeyd olunduğu kimi, elektron təhsil sisteminin işə salınması da bu istiqamətdə bizə çox böyük kömək olacaqdır. Bizim tərəfimizdən yay və qış məktəblərinin, pulsuz dil kurslarının təşkili, digər tədbirlərin həyata keçirilməsi ilə müəllimlərin və tələbələrin sinifdənxaric fəaliyyətini zənginləşdirməklə yanaşı, onların özlərini inkişaf etdirməsi baxımından gözəl imkanlar yaradacaq.

Ən əsası, texniki profilli olan Azərbaycan Dövlət Neft və Sənaye Universitetində tədris prosesi istehsalatla inteqrasiya edilməlidir. Bu, universitetin bilavasitə istehsalatda iştirak etməsi, tələbələrimizin təcrübə keçməsi və məzunlarımızın işlə təmin olunması baxımından çox önəmlidir.

Həmçinin universitet, ayrı-ayrı kafedralar və professorlar daxili və xarici layihələrdə iştirak etməli, qazanılmış və icra olunan layihələrlə Azərbaycan elminə töhfə verməyi qarşısın məqsəd qoymalıdır. Bu cür fəaliyyət Azərbaycan elminin dünya elminə töhfəsini təmin edəcək, professorlarımızın qlobal elmi mübadilədə iştirakına şərait yaradacaq, universitetimizin maddi-texniki bazasını möhkəmlədəcək. Məqsəd budur ki, universitetin büdcəsinin böyük qismi tələbələrin tədrisi üçün ödənilən vəsaitlə deyil, daxili və xarici layihələrdən, universitetin iştirak etdiyi istehsalat proseslərindən gələn gəlirlə formalaşsın.

İnamla və fəxrlə söyləmək olar ki, qarşıya qoyulmuş məqsədlərə çatmaqda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əsas sərvətlərindən biri kimi burada çalışan, yüksək ixtisaslı, peşəkar professor-müəllim heyətinin mövcudluğu böyük rol oynayacaq. **Qocaman, təcrübəli, bütün ömürlərini bu ali məktəbə həsr etmiş professorların olması ADNSU-nun fəaliyyətinə nə qədər şöhrət və təcrübə qatsa da, onların təcrübəsindən istifadə etmək, biliklərini növbəti nəslə ötürmək də çətin və məsuliyyətli prosesdir. Ona görə də gənclərlə düzgün iş qurulmalı və onlar yeni dövrün tələbləri çərçivəsində ali təhsilimiz və elmimiz üçün çalışmalıdır.**

Universitetin yalnız təhsil müəssisəsi deyil, həmçinin bir ideoloji mərkəz olduğunu nəzərə alaraq, gənclər siyasətinə böyük diqqət ayırmalı, onların vətənpərvər ruhda böyütməliyik. Təlim-tədris prosesində gənclərə obyektiv və bərabərhüquqlu yanaşılsa, onların istək və tələbləri nəzərə alınsa, həmin gənclərdə müəllimə, məktəbə, universitetə, cəmiyyətə, ölkəyə, sabaha bir inam yaranacaq. Ona görə də universitetin müəllim heyəti və rəhbərliyi də bu cür məsələlərdə çox həssas olmalı, gənclərin inkişafına, özlərini ifadə etməsinə şərait yaratmalıdır.

“Özlərini ifadə etməsini” deyərkən, ilk növbədə, gənclərimizdə olan intellektual potensialın reallaşdırılması nəzərdə tutulur. Belə ki, bir çox hallarda, müasir dövrümüzlə ayaqlaşma, kreativlik baxımından onlar orta və yaşlı nəslin nümayəndələrindən çox irəlidədir. Buna görə də universitet daxilində istedadlı və yaradıcı insanların intellektindən istifadə edərək yeni ixtiralar, layihələr yaratmaqla, onlar həyatımızın müxtəlif sahələrində istifadə olunmalıdır. Çağdaş dövrün tələblərinə uyğun olaraq, bir universitetin məqsədi məzun yox, layihə və ya şirkət, ən azı ideya buraxmaq olmalıdır.

**Yuxarıda qeyd olunduğu kimi, Azərbaycanda həm neft, həm də qeyri-neft sənayesinə töhfə, ixtisaslı kardları vermək üçün mütləq istehsalatla, müxtəlif müəssisələrlə sıx əməkdaşlıq edəcək, tələbələrimizin praktika, məzunlarımızın işlə təmin olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rəhbərliyi olaraq artıq ali məktəbimizin təhsilinin səviyyəsini müəyyənləşdirmək üçün bəzi statistik meyarlar müəyyənləşdirmişik: buranı bitirən məzunların müəyyən zaman kəsiyində (6 ay - 1 il ərzində) işlə təmin olunma faizi tədqiq olunacaq, nəticə çıxarılacaq, bu nəticələrə uyğun təkliflər hazırlanacaq, əgər göstərici aşağı olarsa, vəziyyətin düzəldilməsi yolları aranacaq.**

Bir daha xüsusi qeyd etmək istərdim ki, **cənab Prezident İlham Əliyevin bu il sentyabrın 3-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin adının dəyişdirilməsi ilə bağlı sərəncamı qürur verdiyi qədər məsuliyyət də gətirən bir qərardır. Dövlət başçısının göstərdiyi etimad bütün kollektivin üzərinə böyük vəzifələr qoyur.** Həmçinin son bir neçə onillik ərzində bir çox ölkələrdə tanınan, neft-qaz profili üzrə dünyanın qabaqcıl məktəblərindən biri olan bu köklü və şanlı ali təhsil ocağının yeni dövrdə qarşısına qoyulan məqsədlər rəhbərliyin, professor-müəllim heyətinin və tələbələrin məsuliyyət hissini və vəzifələrini daha da artırır.

Odur ki, bu etimadı və məsuliyyəti yalnız bir yolla doğrultmaq olar: Ölkənin inkişafı yolunda öz üzərimizə düşən vəzifəni ağıllı, düzgün və şəffaf şəkildə həyata keçirməklə! Bunun üçün professor-müəllim heyəti universitetin adına layiq davranaraq tələbələrə yüksəkkeyfiyyətli təhsil verməli, tələbələr isə ölkəmizin gələcəyi naminə oxuyaraq ixtisaslı kadrlara çevrilməlidirlər.

**Mustafa BABANLI,**
**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, texnika elmləri doktoru, professor.**